# Azərbaycandakı protestantlar Ermənistanın çirkin təbliğatına qəti etiraz ediblər

Azərbaycanda fəaliyyət göstərən protestant xristian dini icma rəhbərləri postmüharibə dövründə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan torpaqlarında ekoloji terrora və təbii ehtiyatların qanunsuz istismarına dinc etiraz aksiyası ilə əlaqədar Ermənistanın siyasi və dini rəhbərliyinin beynəlxalq ictimai fikri çaşdırmaq, yanlış istiqamətdə yönləndirmək məqsədilə apardığı təbliğat kampaniyasına qəti etiraz əlaməti olaraq bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, bəyanatda protestant xristian dini icmalarının rəsmiləri rəhbəri olduqları icmaların azad iradəsini ifadə etdikləri bildirilib. Qeyd olunub ki, ölkəmizin qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, ziyalıların, gənclərin, ekoloqların, jurnalistlərin və könüllülərin iştirakı ilə "Ekoloji terrora son!" şüarı ilə təşkil olunan dinc aksiya Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış suveren ərazisi olan Şuşada, Xankəndi-Laçın yolunda keçirilir. Bu mənada Ermənistan tərəfinin beynəlxalq ictimaiyyətə başqa bir ölkənin sərhədləri daxilində təşkil olunmuş aksiyaya görə etiraz məktubları, bəyanatları göndərməsi, ümumiyyətlə, hər hansı münasibət bildirməsi absurddur. "Təbəddülatlarla dolu keçən son 30 ildə dünyanın müxtəlif ölkələri tərəfindən aparılan elmi araşdırmalar, təhlillər bəşəriyyətin tezliklə böyük ekoloji böhranla qarşılaşacağına dair SOS siqnalı verməkdə ikən bir qrup azərbaycanlının öz dədə-baba torpaqlarında "ekoloji terrora yox!" deməsinə dəstək verilməsi lazım olduğu halda biz yenə ölkəmizə qarşı ikili standartın tətbiq olunduğunu görür və bundan dərin təəssüf hissi keçiririk", - deyə bəyanatda vurğulanıb.

Diqqətə çatdırılıb ki, Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçılıq siyasətinin, vandallıq və ekoloji terrorun nəticələri haqqında Azərbaycan tərəfi dünya ictimaiyyətini dəfələrlə məlumatlandırmasına baxmayaraq, indiyədək təcavüzkar ölkəyə qarşı nə bir sanksiya tətbiq edilib, nə də hər hansı tədbir görülüb. Rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsindən sonra Azərbaycan dövlətinin ortaya çıxardığı faktlar tükürpədicidir, ermənilərin təkcə insanlığa deyil, həm də təbiətə qarşı düşmən mövqedə olduqlarının bariz sübutudur. İşğal dövründə ölkəmizin flora və faunasına ciddi zərər vurulub, hektarlarla torpaq və meşə zolaqları yandırılıb, su hövzələri zəhərlənib, şəhər və kəndlərimiz yerləyeksan edilib, basdırılmış saysız-hesabsız minalar ucbatından insanlarımızın doğma torpaqlarına qayıdışı ləngiyir, müharibədən sonra yüzlərlə mülki vətəndaş mina terrorunun qurbanına çevrilib. İşğal illərində məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb, talan olunub, Alban kilsələri və pravoslav kilsələri dağıdılıb və ya qriqoriyanlaşdırılıb. Ancaq nədənsə özünü dünyanın jandarmı kimi aparan ölkələr, beynəlxalq təşkilatlar bunları "görmür", azərbaycanlıların təbii sərvətlərin talanmasına və ekologiyaya ziyan vurulmasına qarşı şüarlarla keçirilən dinc xarakterli aksiyasına "humanitar böhran" yarlığı vururlar. Halbuki Azərbaycan dəfələrlə bəyan edib ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli vətəndaşlarının humanitar problemlərini, müraciətlərini operativ şəkildə həll etməyə hazırdır və hətta bunun üçün "qaynar xətt" də yaradılıb. Digər tərəfdən, aksiya keçirilən yerdən günlərdir çəkilən videokadrlardan da aydın görünür ki, aksiyaçılar humanitar yük daşıyan və təcili tibbi yardım maşınlarının sərbəst hərəkət edə bilmələri üçün hər hansı maneə törətmir, əksinə, lazımi şərait yaradırlar. Bütün bunlar Azərbaycan xalqının geninə hopmuş humanizmin, sülhpərvərliyin, dövlət rəhbərliyinin sülhsevər siyasətinin göstəricisi olduğu halda, erməni kilsəsinin guya sözügedən aksiyanın Azərbaycanın etnik təmizləmə siyasətinin bir hissəsi olduğunu dünyaya car çəkməsi riyakarlıqdan, ikiüzlülükdən başqa bir şey deyildir. Azərbaycan dövlətinin öz ərazisindəki Laçın yolu ilə bağlı mövqeyi birmənalıdır və dəfələrlə dilə gətirilib: bu yol hərbi və ya hər hansı qanunsuz fəaliyyətlər üçün deyil, yalnız mülki-humanitar məqsədlər üçün istifadə oluna bilər.

"Biz, Azərbaycanda fəaliyyət göstərən protestant xristian dini icmalarının rəhbərləri bu bəyanatımızla dünya birliyini, beynəlxalq təşkilatları, nəhayət, ikili standartlardan əl çəkərək həqiqəti görməyə, Azərbaycanın suverenliyinə hörmətlə yanaşmağa, onun suveren ərazisində separatizmə dəstək verməyə deyil, son qoyulmasına yardımçı olmağa, Uca Tanrının hamımıza bəxş etdiyi təbii sərvətlərin talanmasına və törədilən ekoloji cinayətlərə qarşı birgə qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq!"- deyə sənəddə qeyd edilib.

**Bəyanatı imzalayanlar:**

Rasim Xəlilov - Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri;
Emil Pənahov - "Vineyard Azərbaycan" xristian dini icmasının sədri;
İdris Məmmədov - Bakı şəhəri "Alov" xristian dini icmasının sədri;
Samir Sadıqov - Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının sədri;
Elşən Hüseynzadə - Bakı şəhəri Nəsimi rayonu "Həyatverici Lütf" xristian dini icmasının sədri;
Valeriy Katkov - Bakı şəhəri "Molokan ruhani-xristian" dini icmasının sədri;
Mahir Verdiyev - Bakı şəhəri Nərimanov rayonu "Yeddinci günün adventistləri" dini icmasının sədri;
Svetlana Stepanova - Bakı şəhəri "Yeni Apostol" xristian dini icmasının sədri;
Vera Nesterova - Xilaskar Yevangelik-Lüteranların Bakı dini icmasının sədri;
Lyudmila İbrahimova - "Yeni Həyat" xristian İncil dini icmasının sədri;
Yusif Fərhadov - "Həyat Sözü" dini icmasının sədri;
Roman Jmurov - "Şərqdə Ulduz" xristian İncil dini icmasının sədri.

Azərbaycan. - 2022.- 31 dekabr.- S.24.